# Avrasiyanın yeni bir nəqliyyat damarı açılır

Oktyabrın 26-da iki lider Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoymaqla Zəngəzur dəhlizinin bərpasına start verdilər.

Başlanğıcını Füzulidən götürəcək bu yol Ermənistan sərhədinə qədər 123,6 kilometrdir. Yolun üzərində uzunluğu toplam 3610 metr olan 3 tunel tikiləcək. Hazırda Zəngilan ərazisində dördüncü tunel tikilir. Tuneldə artıq 160 metrlik iş görülüb.

Yol üstündə Zəngilan hava limanı da yerləşir. Bu yolun üzərində rayon mərkəzləri ilə hava limanını birləşdirən 7 qovşaq tikiləcək.

Zəngəzur dəhlizi eni 5 kilometr olan Laçın dəhlizindən fərqli olaraq ərazi dəhlizi deyil, nəqliyyat dəhlizi funksiyası rolunu oynayacaq. Bu yol həm Azərbaycanın böyük hissəsini Naxçıvanla əlaqələndirəcək, həm də Naxçıvan üzərindən Azərbaycan Türkiyə ilə birbaşa dəmiryolu və avtomobil yolu ilə əlaqə quracaq. Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan da İstanbula gedən yol da salınacaq.



Bir sözlə, Zəngəzur dəhlizi ilə Asiya Avropaya birləşəcək. İlham Əliyevin növbəti təşəbbüsü ilə qitələrarası iqtisadi, ticarət və nəqliyyat tərəfdaşlığının inkişafına mühüm təkan veriləcək.

Təməlqoyma mərasimində liderlərin fikirləri təsdiq etdi ki, bu dəhlizlə Avrasiyanın yeni nəqliyyat damarı açılacaq. Zəngəzur dəhlizinin bütün türk dünyasını birləşdirəcəyini deyən İlham Əliyev bəyan etdi ki, həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır və bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcək.

Rəcəb Tayyib Ərdoğan isə dəhlizin fəaliyyət istiqamətini dəyərləndirərkən bildirdi ki, bu yollar bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək. Türkiyə isə bu fəaliyyətlərdə üzərinə düşəni yerinə yetirməkdə, qardaş Azərbaycana bütün imkanları ilə dəstək olmaqda davam edəcək.

Bu hayihənin reallaşması ilə bütün geosiyasi qüvvələr Azərbaycan və Türkiyənin mövqeyi, atdığı addımlar, uğurlu iqtisadiyyat və nəqliyyat layihələri ilə sözsüz ki, hesablaşacaqlar. Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi Azərbaycan və Türkiyə, ümumilikdə, Avrasiyanın orta xəttində hər kəs üçün yeni bir səhifə açacaq.

Türkiyə Prezidentinin söylədiyi kimi, Azərbaycan dünyaya örnək olacaq inkişaf modeli ilə bölgənin inkişafı üçün fəaliyyətini uğurla davam etdirir. Bu fəaliyyəti həyata keçirən İlham Əliyev isə tarixinin ən qüdrətli Azərbaycanını böyük uğurlarla daha möhtəşəm gələcəyə aparır.

Beləliklə, oktyabrın 26-da təməli qoyulan dəhlizin reallaşmasına startın verilməsi o deməkdir ki, tezliklə Azərbaycan xalqı 101 il bundan əvvəl əlindən alınmış Zəngəzura qayıdacaq. Bununla da İlham Əliyev daha bir tarixi ədaləti bərpa edəcək.

**"Azərbaycan"**

# Siyasi varislik missiyası

Ulu öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi Azərbaycanda ictimai zərurətə çevrilmişdir. Bu kursu layiqincə davam etdirən dövlət başçısı cənab Prezident İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır.

Ümummilli liderin əbədiyyətə qovuşmasından sonra ürəklənən daxili və xarici bədxahlar ilkin dönəmdə sevinsələr də onların bu xoşbəxtliyi uzun sürmədi. Tezliklə hamısı anladı ki, yola saldığı illərdə Heydər Əliyev yalnız dövlət qurmaqla məşğul olmayıb, həm də o dövlətin gələcəkdə başsız qalmaması üçün yeni lider, sərkərdə yetişdirib.

Heydər Əliyev məktəbinin ən parlaq yetirməsi olan İlham Əliyev özü də bu gün bir məktəbdir. Yazdığı yeni tarixi dayanıqlı etmək üçün o da sadiq silahdaşlar yetişdirir, dəyərli kadrlar formalaşdırır. 2003-cü il oktyabr ayının 1-də xalqına ünvanladığı müraciətdə "Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var" yazan ulu öndərimiz həyatının mənası son Azərbaycanın qarşısında son xidmətini də göstərmiş, bu planları həyata keçirmək qüdrətində olan siyasi varisi barədə demişdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Həmin il oktyabrın 15-də keçirilən prezident seçkilərində Azərbaycan xalqı Heydər Əliyev siyasətinin davamına səs verərək İlham Əliyevi özünün rəhbəri seçdi. Xalq özünün əbədi liderinin sözünə güvənmişdi və indi də güvənir. Ulu öndərimizin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən İlham Əliyevin prezidentliyinin ilk 5 ilində ölkəmizin inkişafı daha da sürətləndi, yeni-yeni uğurlara imza atıldı. Qısa müddətdə Azərbaycan keçid dövrünü yaşayan ölkədən inkişaf edən dövlətlər sırasına çıxdı.

Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında ən öncül yerlərdən birini tutur. Bu inkişafın əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına əsasən müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin təmin və mühafizə olunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəkliklərini təşkil edir. Heç şübhəsiz, bütün bu nailiyyətlərin əsasında güclü lider fenomeni dayanır.

Artıq xalqımızın ən mühüm problemi - Qarabağ münaqişəsi tarixin arxivinə qovuşandan sonra Azərbaycan daha da sürətli inkişaf yoluna qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. Bu gedişat yaxın 3-5 il ərzində həmin yerlərin cənnətə çevrilməsilə nəticələnəcək. Ölkənin digər bölgələrində də eyni sürətlə quruculuq-abadlıq işləri həyata keçirilir. Prezidentin müntəzəm olaraq bölgələrə etdiyi səfərlərdə yeni obyektlər açılır, infrastruktur layihələri icra olunur. Elm və təhsilə, səhiyyəyə, hərbiyə, mədəniyyətə, sosial-iqtisadi məsələlərə, bir sözlə bütün sahələrə dövlət başçısının xüsusi diqqəti və qayğısı müşahidə olunur. İşinin çoxluğuna baxmayaraq hər bir sahə ilə, bəzən həmin sahədə söz sahibi olan insanlarla ayrı-ayrılıqda maraqlanır, problemlərin həlli üçün qətiyyətli addımlar atır. Vətəndaş dövlətini, onun başçısını daim öz yanında görür, güvəndə olduğunu hiss edir.

# Dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümü

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin otuzuncu ildönümü tamam olur.Bu illər ərzində demokratik, hüquqi və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin strategiyasına uyğun respublikamızda həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və millimənəvi dəyərlərin dirçədilməsinə yönəldilərək gələcək müstəqiliyimizin təmin olunması üçün zəmin hazırlamışdı.

SSRİ-nin süqutunun qaçılmaz şəkil alması onun tərkibinə daxil olan bütün müttəfiq respublikalara müstəqilik əldə etmək imkanı yaratdı. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də qəbul etdiyi "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə Azərbaycan Xalq Cumhuriyyətinin varisi olduğunu bəyan edərək öz dövlət müstəqilliyini və suverenliyini beynəlxalq aləmə bildirdi. Qısa müddətdə dünya birliyi ölkələri və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmaqla o, beynəlxalq hüququn subyektinə çevrildi. Həmin gün tariximizə dövlət müstəqilliyinin bərpası günü kimi daxil oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, himni və gerbi dövlət atributları kimi qəbul edildi. Keçid dövrünü başa vuran Respublikamız bu gün özünün uzunmüddətli inkişaf strategiyasının istiqamətlərini müəyyən edən bir ölkədir. Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə ön sıralarda gedərək islahatçı ölkə kimi tanınır. Respublikamızda neft və qeyrineft sektorlarının yüksəlişi, çoxşaxəli iqtisadiyyatın ahəngdar inkişafı təmin olunmuşdur. Ümumi daxili məhsul, büdcə və valyuta ehtiyatları ildən-ilə artmaqdadır. Güclü sahibkarlar sinifi və orta təbəqə yaranmışdır. Azərbaycanın enerji təhlükəsizliyi təmin olunmuşdur. Yeni infrastruktur formalaşmış, beynəlxalq aeroportlar istismara verilir, minlərlə kilometr yol və müasir körpülər salınır.

30 illik inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdirki, bu gün Azərbaycan sözün əsl mənasında artıq tam müstəqil ölkədir. Ölkəmizdə gerçəkləşdirilən siyasət daim Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Bu gün Azərbaycan dövləti Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali baş Komandan İlham Əliyevin qətiyyəti, yenilməz sərkərdə cəsarəti və diplomatik məharəti sayəsində tarixinin şanlı günlərini yaşayırıq. Ərazi bütövlüyümüz bərpa olunub. Rəşadətli ordumuzun erməni faşizmi üzərində möhtəşəm qələbəsi nəticəsində əzəli torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı dalğalanır, həmdə bu torpaqlara həyat qayıdır, bu torpaqlar yenidən cənnətə çevrilir. Vətən müharibəsində tarixi qələbə, ölkəmizin dünyadakı hazırki layiqli yeri, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu göstərir. Azərbaycanın dövlət müstəqilliyi respublikamızın hər bir vətəndaşı üçün böyük sərvətdir. Bu sərvəti qoruyub saxlamaq isə hər bir Azərbaycanlının müqəddəs borcudur.

**Zinyət BAĞIROVA,**
**Qəbələ şəhəri.**